**Azərbaycan Respublikası adından**

**Q Ə T N A M Ə**

İş № 2(103)- /2019

“ ” 2019-cu il Bakı şəhəri

Bakı Apellyasiya Məhkəməsinin mülki kollegiyası

Hakimlər Raqib Əliddin oğlu Qurbanovun sədrliyi və məruzəsi ilə, Etibar Qəzənfər oğlu Nəbiyev və Azad Nizam oğlu İmanovdan ibarət tərkibdə,

məhkəmə iclas katibi Lalə Adil qızı Əbdürrəhimovanın katibliyi ilə

iddiaçının nümayəndəsi və vəkili XXXX oğlunun və cavabdehin nümayəndəsi XXXX oğlunun iştirakı ilə,

Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin 2(004)- /2018 saylı mülki iş üzrə qəbul etdiyi 17 sentyabr 2018-ci il tarixli qətnaməsindən iddiaçı XXXX “XXXX” XXXX XXXX Şirkəti və cavabdeh XXXX oğlu tərəfindən ayrı-ayrılıqda verilmiş apellyasiya şikayətlərinə əsasən mülki işə Bakı Apellyasiya Məhkəməsinin binasında, açıq məhkəmə iclasında baxaraq,

**m ü ə y y ə n e t d i:**

İddiaçı XXXX “XXXX” XXXX XXXX Şirkəti cavabdeh XXXX oğluna qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, cavabdehdən pul vəsaitlərinin üzərinə həbs qoyulması nəticəsində həmin pul vəsaitlərinin vaxtında konvertasiya edilərək, köçürülməsi imkanından məhrum edildiyindən 383940 ABŞ dolları dəymiş ziyanın, həmçinin 12.08.2014-12.06.2016-cı il tarixləri üzrə Mərkəzi Bankın uçot faiz dərəcəsi ilə hesablanmış 92152 ABŞ dolları, ümumilikdə iddianı təmin etmə tədbirinin tətbiq edilməsi nəticəsində vurulmuş zərər məbləğini təşkil edən 476092 ABŞ dollarının tutularaq, iddiaçıya ödənilməsi barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

Eyni zamanda cavabdeh XXXX oğlu ilk iddia ilə birlikdə baxılmaq üçün XXXX “XXXX” XXXX XXXX Şirkətinə qarşı qarşılıqlı iddia qaldıraraq, XXXX “XXXX” XXXX XXXX Şirkətindən onun xeyrinə 300000 manatın tutulması barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin 17 sentyabr 2018-ci il tarixli 2(004)- /2018 saylı qətnaməsi ilə ilk iddianın qismən təmin edilməsi, ilk iddia üzrə cavabdeh XXXX oğlundan 381073,35 ABŞ dolları və ödənilmiş dövlət rüsumunun 24 manat hissəsinin tutularaq ilkin iddia üzrə iddiaçı XXXX “XXXX” XXXX XXXX Şirkətinə ödənilməsi, ilk iddia tələbinin qalan hissədə təmin edilməməsi, qarşılıqlı iddianın təmin edilməməsi, qarşılıqlı iddianın verilməsi üçün ödənilmiş 30 manat dövlət rüsumunun qarşılıqlı iddia üzrə iddiaçıya aid edilməsi, aparılmış ekspertiza tədqiqatının dəyərinin 116 manatının ilkin iddia üzrə cavabdeh XXXX oğlundan, 29 manatın ilkin iddia üzrə iddiaçı XXXX “XXXX” XXXX XXXX Şirkətindən tutularaq dövlət büdcəsinə keçirilməsi qət edilmişdir.

İddiaçı XXXX “XXXX” XXXX XXXX Şirkəti apellyasiya şikayəti verərək, həmin qətnamənin qismən, yəni ilk iddianın təmin olunmamış hissəsində ləğv edilərək, ilk iddianın tam təmin olunmasını xahiş etmişdir.

Cavabdeh XXXX oğlu da apellyasiya şikayəti verərək, həmin qətnamənin qismən, yəni ilk iddianın təmin edildiyi hissədə ləğv edilməsi, ilk iddianın tam rədd edilməsi və qarşılıqlı iddianın təmin edilməsini xahiş etmişdir.

Apellyasiya şikayətlərində işin faktiki halları göstərilmiş və əlavə olaraq göstərilmişdir ki, birinci instansiya məhkəməsi maddi və prosessual hüquq normalarını pozmuş, işin hallarını tam və hərtərəfli araşdırmamış və işin hallarına uyğun olmayan nəticəyə gəlmişdir.

Məhkəmə iclasında iddiaçı və cavabdehin nümayəndələri təmsil etdikləri şəxslərin apellyasiya şikayətini müdafiə etdilər və əks tərəfin apellyasiya şikayətinə etiraz etdilər.

Məhkəmə kollegiyası hesab edir ki, apellyasiya şikayətləri təmin edilməməlidir.

Mülki Prosessual Məcəllənin 372.6-cı maddəsinin tələblərini nəzərə alaraq kollegiya qeyd edir ki, ilk olaraq apellyasiya baxışının hədləri müəyyən edilməlidir.

Belə ki, iddiaçının apellyasiya şikayətinin sonunda qətnamənin qismən, yəni ilk iddianın təmin olunmamış hissəsində ləğv edilərək, ilk iddianın tam təmin olunması xahiş edilsə də, apellyasiya şikayətinin dəlillərindən və iddiaçının nümayəndəsi və vəkilinin məhkəmə iclasında verdiyi izahatından müəyyən olunur ki, qətnamə yalnız ilk iddiada irəli sürülmüş Mülki Məcəllənin 449.1-ci maddəsinə əsasən faiz məbləğinin tutulması barədə tələblərin rədd edilməsi hissəsində mübahisələndirilir.

Həmçinin cavabdehin apellyasiya şikayətindən müəyyən olunur ki, qətnamə yalnız ilk iddianın qismən təmin olunmuş hissəsində və qarşılıqlı iddianın rədd edilməsi hissəsində mübahisələndirilir.

Qeyd olunanları və Mülki Prosessual Məcəllənin 372.6-cı maddəsinin tələblərini nəzərə alaraq kollegiya qeyd edir ki, qətnamənin əsaslığı yalnız ilk iddianın qismən təmin olunmuş hissəsində, habelə ilk iddiada irəli sürülmüş Mülki Məcəllənin 449.1-ci maddəsinə əsasən faiz məbləğinin tutulması barədə tələblərin və qarşılıqlı iddianın rədd edilməsi hissəsində yoxlanılır.

İş materiallarına əsasən mübahisəsiz qaydada müəyyən olunur ki, XXXX oğlu tərəfindən XXXX “XXXX” XXXXXXXX Şirkətinə qarşı pul tələbinə dair iddia qaldırılmış və iddianı təmin etmə tədbiri kimi “XXXX” Şirkəti və “XXXX” ASC arasında bağlanmış 15.03.2014-cü il tarixli “Hüquqi şəxsin nizamnamə kapitalındakı payların alqı-satqısı haqqında müqavilə”yə əsasən “XXXX” ASC-nin “XXXX” Şirkətinə 15.01.2015-ci il tarixədək ödəyəcəyi 600000 manatın üzərinə həbs qoyulması və həmin pul vəsaitləri ilə hər hansı bir hərəkətlərin edilməsinin qadağan edilməsinə dair qərardad çıxarılmasını xahiş etmişdir. Abşeron Rayon Məhkəməsinin 12.08.2014-cü il tarixli 2(012)- /2014 saylı qərardadı ilə mübahisəyə mahiyyəti üzrə baxılıb qurtaranadək, “XXXX” Şirkəti və “XXXX” ASC arasında bağlanmış 15.03.2014-cü il tarixli “Hüquqi şəxsin nizamnamə kapitalındakı payların alqı-satqısı haqqında müqavilə”yə əsasən “XXXX” ASC-nin “XXXX” Şirkətinə 15.01.2015-ci il tarixədək ödəyəcəyi 600000 manatın üzərinə həbs qoyulmuş və həmin pul vəsaitləri ilə hər hansı bir hərəkətlərin edilməsi cavabdehlərə və başqa şəxslərə qadağan edilmişdir. Həmin qərardaddan “XXXX” Şirkəti tərəfindən şikayət verilmiş, Abşeron Rayon Məhkəməsinin 29.08.2014-cü il tarixli 2(012)- /2014 saylı qərardad ilə şikayət qismən təmin edilərək, qərardadla müəyyən olunmuş iddianı təmin etmə tədbiri digəri ilə əvəz edilərək mübahisəyə mahiyyəti üzrə baxılıb qurtaranadək “XXXX” XXXXXXXX Şirkəti və “XXXX” ASC arasında bağlanmış 15 mart 2014-cü il tarixli “Hüquqi şəxsin nizamnamə kapitalındakı payların alqı-satqısı haqqında müqavilə”yə əsasən “XXXX” ASC-nin “XXXX” XXXXXXXX Şirkətinə 15.01.2015-ci il tarixədək ödəyəcəyi 600000 manat pul vəsaitinin Abşeron Rayon Məhkəməsinin depozit hesabına keçirilməsi qərara alınmışdır. Bakı Apellyasiya Məhkəməsinin 19.11.2014-cü il tarixli 2(103)- /2016 saylı qərardadı ilə Abşeron Rayon Məhkəməsinin 29.08.2014-cü il tarixli 2(012)- /2014 saylı qərardadı dəyişdirilmədən saxlanılmışdır. Abşeron Rayon Məhkəməsinin 03.07.2015-ci il tarixli 2(012)- /2015 saylı qətnaməsi ilə XXXX oğlunun iddiası rədd edilmişdir. Qətnamə ilə Abşeron Rayon Məhkəməsinin 12.08.2014-cü il tarixli qərardadı ilə müəyyən edilmiş iddianı təmin etmə tədbirinin qətnamənin qanuni qüvvəyə minənə qədər saxlanılması qərara alınmışdır. Sumqayıt Apellyasiya Məhkəməsinin 05.01.2016-cı il tarixli 2(105)- /2016 saylı qətnaməsi ilə Abşeron Rayon Məhkəməsinin 03.07.2015-ci il tarixli 2(012)- /2015 saylı qətnaməsi dəyişdirilmədən saxlanılmışdır. Azərbaycan Respublikası Ali Məhkəməsinin 16.06.2016-cı il tarixli qərarı ilə Sumqayıt Apellyasiya Məhkəməsinin 05.01.2016-cı il tarixli 2(105)- /2016 saylı qətnaməsi dəyişdirilmədən saxlanılmışdır.

İddiaçı bildirir ki, cavabdehin əsassız iddia qaldırması və bununla əlaqədar iddianı təmin etmə tədbiri kimi “XXXX” Şirkətinə ödənilməli olan 600000 manat pul vəsaitinin üzərinə həbs qoyulması nəticəsində “XXXX” Şirkəti külli miqdarda pul vəsaitlərindən istifadə etməkdən məhrum olmuşdur. Pul vəsaitlərinin üzərinə həbs qoyulması barədə qərardad qəbul olunan tarixdə Azərbaycan Respublikası Mərkəzi Bankının AZN/ABŞ dolları məzənnəsi 1 USD = 0,7843 manat olmuşdur. Ali Məhkəmənin 16.06.2016-cı il tarixli qərarının qəbul edildiyi gün isə Mərkəzi Bankın AZN/ABŞ dolları məzənnəsi 1 USD = 1,515 manat olmuşdur. Beləliklə, “XXXX” Şirkətinin pul vəsaitlərinin üzərinə əsassız iddia qaldırılması nəticəsində həbs qoyulmasaydı, o, öz pul vəsaitlərini ABŞ dollarına mübadilə etməklə 765013 ABŞ dolları əldə etmiş olardı. Belə ki, “XXXX” Şirkəti XXXX hüquqi şəxsidir, Azərbaycan Respublikasında

biznes fəaliyyəti yoxdur və Azərbaycan Respublikasında aldığı pulları ABŞ dollarına mübadilə edir. Pul vəsaitlərinin üzərinə həbs qoyulması nəticəsində həmin pul vəsaitlərinin vaxtında konvertasiya edilərək, köçürülməsi - imkanından məhrum edildiyindən "XXXX" Şirkətinə dəymiş ziyan 383940 ABŞ dolları olmuşdur. Bundan əlavə, pul vəsaitlərinin üzərinə həbs qoyulduğu tarixdən - 12.08.2014-cü il tarixdən pul vəsaitlərinin icra şöbəsinin depozitinə ödənildiyi 12.06.2016-cı il tarixədək 22 ay keçmişdir ki, bu müddət üçün də Mərkəzi Bankın uçot faiz dərəcəsi ilə cərimə ödənilməlidir.

Cavabdeh iddiaya etiraz edir və qarşılıqlı iddia irəli sürərək bildirir ki, iddiaçının hazırkı iş üzrə verdiyi iddianın təmini tədbiri barədə ərizə əsasında qəbul edilən qərardad nəticəsində ona külli miqdarda ziyan dəymişdir. Belə ki, XXXX rayonu, XXXX kəndi ünvanında yerləşən 50 ha torpaq sahəsi, Abşeron rayonu, XXXX qəsəbəsi, XXXX ərazisində 70 ha torpaq sahəsi iddiaçının mülkiyyətində olduğu halda həmin əmlakları alqı-satqı yolu ilə digər şəxsin sərəncamına verə bilmir. Hal-hazırda respublikada daşınmaz əmlakların qiymətinin günü-gündən aşağı düşməsi nəzərə alınarsa, işə baxılıb yekun qərar qəbul edilənədək sözügedən əmlakların qiymətinin hansı həddə kimi düşəcəyi və ona hansı məbləğdə ziyan dəyəcəyi sual altına düşür. İddianın və iddianın təmin tədbirinə dair ərizənin əsassız olması açıq-aşkardır. XXXX "XXXX" XXXXXXXX Şirkəti tərəfindən əsassız iddia qaldırılması nəticəsində 300000 manatdan çox zərərə məruz qalmışdır. Belə ki, əsassız iddianın qaldırılması onun qanuni yolla mülkiyyətinə aldığı əmlakdan sərbəst şəkildə istifadə edilməsinə, sərəncam verməsinə və digər formada bəhrələnməsinə maneçilik yaratmışdır

Məhkəmə kollegiyası hesab edir ki, ilk iddia qismən əsaslıdır.

Belə ki, Mülki Məcəllənin 21.2, 1096, 1097-ci maddələrinin mənasına görə zərərin ödənilməsi üçün aşağıdakı hüquqi əsaslar müəyyən edilməlidir: zərərin mövcud olması, zərərin qanunsuz hərəkət və yaxud hərəkətsizlik nəticəsində vurulması, zərərlə qanunsuz hərəkət və yaxud hərəkətsizlik arasında səbəbli əlaqənin olması, zərər vuran şəxsin təqsirli olması.

Eyni zamanda iddiaçının istinad etdiyi halları nəzərə alaraq kollegiya hesab edir ki, iddia tələbinin qanuni əsası kimi Mülki Prosessual Məcəllənin 164-cü maddəsi də çıxış edir.

Belə ki, həmin maddənin tələblərinə görə iddianın rədd edilməsi haqqında qətnamə qanuni qüvvəyə mindikdən sonra cavabdeh iddianın təmin edilməsi ilə əlaqədar məhkəmə tərəfindən tədbirlərin görülməsi nəticəsində vurulmuş zərəri iddiaçıdan tələb etməyə haqlıdır.

Kollegiya hesab edir ki, hazırkı işdə qeyd olunan bütün əsaslar mövcuddur.

Çünki, iş materiallarında olan sənədlərlə təsdiq olunur ki, iddiaçı XXXX oğlu cavabdehlər "XXXX" MMC-yə, "XXXX" XXXXXXXX Şirkətinə, XXXX oğluna, XXXX (üçüncü şəxs "XXXX" MMC) qarşı pul tələbinə dair iddia ərizəsi ilə məhkəməyə müraciət etmiş, həmin mülki işdə iddiaçı tərəfindən iddianı təmin etmək haqqında ərizə verilmiş və həmin ərizə təmin olunaraq, mübahisəyə mahiyyəti üzrə baxılıb qurtaranadək "XXXX" XXXXXXXX Şirkəti və "XXXX" ASC arasında bağlanmış 15.03.2014-cü il tarixli "Hüquqi şəxsin nizamnamə kapitalındakı payların alqı-satqısı haqqında müqavilə"yə əsasən "XXXX" ASC-nin "XXXX" XXXXXXXX Şirkətinə 15.01.2015-ci il tarixədək ödəyəcəyi 600000 manat pul vəsaitinin üzərinə ilkin olaraq (12.08.2014-cü il tarixdə) həbs qoyulmuş, sonradan isə (29.08.2014-cü il tarixdə) həmin vəsaitin məhkəmənin depozit hesabına keçirilməsi qərara alınmışdır. Abşeron Rayon Məhkəməsinin 03.07.2015-ci il tarixli 2(012)- /2015 saylı qətnaməsi ilə iddia təmin edilməmiş, Sumqayıt Apellyasiya Məhkəməsinin 05.01.2016-cı il tarixli 2(105)- /2016 saylı qətnaməsi və Azərbaycan Respublikası Ali Məhkəməsinin 16.06.2016-cı il tarixli qərarı ilə iddiaçı XXXX oğlu tərəfindən verilmiş apellyasiya və kassasiya şikayətləri təmin edilməmişdir.

Beləliklə, həmin mülki iş üzrə seçilmiş iddianın təmini tədbiri nəticəsində iddiaçı özünə məxsus olan 600000 manat məbləğində pul vəsaitindən 2014-cü ilin avqust ayından 2016-cı ilin iyun ayına qədər olan müddətdə istifadə edə bilməmiş və onun üzərində sərəncam vermək hüquqlarından məhrum olmuşdur.

Həmçinin iş materiallarından görünür ki, iddiaçı XXXX hüquqi şəxsdir, Azərbaycan Respublikasında biznes fəaliyyəti yoxdur. Bu səbəbdən kollegiya həmin pul vəsaitlərinin xarici valyutaya konvertasiya edilərək, köçürülməsi barədə iddiaçının dəlillərini əsaslı hesab edir. Digər tərəfdən, ABŞ dollarının geniş yayılmış valyuta olması, şirkətlərin digər ölkələrlə biznes münasibətlərində ən geniş istifadə olunan valyuta növü olması da iddiaçının dəlillərinin əsaslı olmasına dəlalət edən hal kimi qiymətləndirilir.

Bu baxımdan kollegiya hesab edir ki, iddiaçı iddianı təmin etmə tədbirinin tətbiqi nəticəsində ona vurulmuş zərərin əvəzinin ödənilməsini tələb etməkdə haqlıdır.

İddiaçıya dəymiş zərərin məbləği isə aşağıdakı qaydada müəyyən olunmalıdır.

Belə ki, birinci instansiya məhkəməsində iş üzrə məhkəmə-mühasibatlıq ekspertizası keçirilmiş və Məhkəmə Ekspertizası Mərkəzi tərəfindən 24.08.2018-ci il tarixli saylı rəyi verilmişdir. Həmin rəyə əsasən 12.08.2014-cü il tarixə Azərbaycan Respublikası Mərkəzi Bankının AZN/ABŞ dolları məzənnəsi ilə 600000,00 manatın 765013,39 ABŞ dolları, 12.02.2016-cı il tarixə Azərbaycan Respublikası Mərkəzi Bankının AZN/ABŞ dolları məzənnəsi ilə 600000,00 manat 381073,35 ABŞ dolları olduğu müəyyən edilir.

Belə olan halda isə müəyyən olunur ki, iddiaçıya dəymiş zərərin ümumi məbləği 383940,04 ABŞ dolları (765013,39 - 381073,35 = 383940,04) təşkil edir və iddiaçı həmin məbləğdə zərərin ödənilməsini tələb etməkdə haqlıdır.

Bununla yanaşı birinci instansiya məhkəməsi yalnız 381073,35 ABŞ dolları məbləğində zərərin cavabdehdən iddiaçının xeyrinə tutulması nəticəsinə gəlmişdir.

Lakin iddiaçı apellyasiya şikayətində qətnamənin həmin hissəsini mübahisələndirməmiş, cavabdeh isə yalnız ilk iddianın qismən təmin olunmuş hissəsini mübahisələndirmişdir.

Hazırkı apellyasiya baxışının həddi də həmin tələb üzrə yalnız 381073,35 ABŞ dollarının cavabdehdən tutulması hissəsindən ibarət olduğundan, kollegiya hesab edir ki, həmin hissədə birinci instansiya məhkəməsinin qətnaməsinin ləğv edilməsi üçün əsaslar mövcud deyildir.

Bununla yanaşı kollegiya hesab edir ki, 12.08.2014-12.06.2016-cı il tarixləri üzrə Mərkəzi Bankın uçot faiz dərəcəsi ilə hesablanmış faiz məbləğinin tutulması hissəsində ilk iddia əsassızdır.

Belə ki, həmin iddia tələblərinin qanuni əsasını Mülki Məcəllənin 449.1-ci maddəsi təşkil edir.

Həmin maddənin tələblərinə görə özgəsinin pul vəsaitini qanunsuz saxlamaqla, onu qaytarmaqdan boyun qaçırmaqla, onun ödənilməsini digər şəkildə gecikdirməklə və ya başqa şəxsin hesabına pul vəsaitini əsassız əldə etməklə və ya toplamaqla ondan faydalanmağa görə həmin vəsaitin məbləğindən faizlər ödənilməlidir. Faizlərin miqdarı pul öhdəliyinin və ya onun müvafiq hissəsinin icra edildiyi gün üçün bank uçot dərəcəsi ilə müəyyənləşdirilir. Borc məhkəmə qaydasında tutulduqda məhkəmə kreditorun tələbini qərarın çıxarıldığı gün üçün bank uçot dərəcəsini əsas götürməklə ödəyə bilər.

“Azərbaycan Respublikası Mülki Məcəlləsinin 449-cu maddəsinin bəzi müddəalarının şərh olunmasına dair” Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 09 iyul 2009-cu il tarixli Qərarında göstərilmişdir ki, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 449.1-ci maddəsinin «ondan faydalanmağa görə» müddəası özgəsinin vəsaitinin qanunsuz saxlanılması, onun qaytarılmasından boyun qaçırılması, onun ödənilməsinin digər şəkildə gecikdirilməsi və ya başqa şəxsin hesabına pul vəsaitin əsassız əldə edilməsi və ya toplanılması nəticəsində Azərbaycan Respublikası Mülki Məcəlləsinin 152.3-cü maddəsində göstərilmiş gəlirin, artımın, bəhərin və ya sair maddi xeyrin əmələ gəlməsini nəzərdə tutur.

Beləliklə, Mülki Məcəllənin 449.1-ci maddəsinə əsasən faizlərin tutulması üçün iddiaçı sübut etməlidir ki, cavabdeh onun pul vəsaitini qanunsuz saxlaması, onu qaytarmaqdan boyun qaçırması, onun ödənilməsini digər şəkildə gecikdirməsi və ya pul vəsaitini əsassız əldə etməsi və ya toplaması nəticəsində faydalanmış, yəni gəlir, artım, bəhər və ya sair maddi xeyr əldə etmişdir.

Hazırkı işdə isə qeyd olunan maddənin dispozitiv şərtləri mövcud deyildir.

Çünki, XXXX oğlunun ərizəsi əsasında məhkəmə tərəfindən iddiaçının pul vəsaitlərinin üzərinə həbs qoyulması heç bir halda XXXX oğlu tərəfindən həmin pul vəsaitinin qanunsuz saxlanılması, onu qaytarmaqdan boyun qaçırması kimi qiymətləndirilə bilməz. Belə ki, XXXX oğlunun ərizəsi əsasında tətbiq edilmiş iddianı təmin etmə tədbiri barədə qərardada əsasən pul vəsaitləri XXXX oğluna verilməmiş və onun tərəfindən istifadə edilməmişdir.

Ona görə də, cavabdehdən Mülki Məcəllənin 449.1-ci maddəsinə əsasən bank uçot faizi dərəcəsinə uyğun hesablanmış faizlər tutula bilməz.

Həmçinin kollegiya hesab edir ki, qarşılıqlı iddia tələbləri rədd edilməlidir.

Belə ki, həmin iddia tələblərinin qanuni əsası da ilk iddiada irəli sürülmüş və yuxarıda göstərilmiş maddələrdən ibarətdir.

Lakin kollegiya hesab edir ki, qarşılıqlı iddia tələblərinə münasibətdə həmin maddələrin dispozitiv şərtləri mövcud deyildir.

Çünki iddiaçı tərəfindən irəli sürülmüş iddia tələblərinin əsas hissəsi təmin edilmişdir. Ona görə də, hazırkı mülki iş üzrə iddianın təmini tədbirinin seçilməsi ilə əlaqədar cavabdehə zərərin vurulması nəticəsinə gəlmək üçün heç bir əsas mövcud deyil və qarşılıqlı iddia tam əsassızdır.

Beləliklə, məhkəmə kollegiyası belə nəticəyə gəlir ki, birinci instansiya məhkəməsinin qətnaməsi (mübahisələndirilən hissədə) qanuni və əsaslı olmaqla işin hallarına uyğundur, apellyasiya şikayətlərində irəli sürülən dəlillər isə əsassızdır və mahiyyətcə düzgün olan birinci instansiya məhkəməsinin qətnaməsinin ləğvi üçün əsas ola bilməz.

Göstərilənlərə əsasən və Mülki Prosessual Məcəllənin 384.0.1, 392, 393, 405-ci maddələrini rəhbər tutaraq, məhkəmə kollegiyası

**q ə t e t d i:**

İddiaçı XXXX "XXXX" XXXXXXXX Şirkəti və cavabdeh XXXX oğlu tərəfindən ayrı-ayrılıqda verilmiş apellyasiya şikayətləri təmin edilməsin.

Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin 2(004)- /2018 saylı mülki iş üzrə qəbul etdiyi 17 sentyabr 2018-ci il tarixli qətnaməsi mübahisələndirilən hissələrdə, yəni ilk iddianın qismən təmin olunmuş hissəsində və ilk iddiada irəli sürülmüş Mülki Məcəllənin 449.1-ci maddəsinə əsasən faiz məbləğinin tutulması barədə tələblərin və qarşılıqlı iddianın rədd edilməsi hissələrində dəyişdirilmədən saxlanılsın.

Qətnamədən rəsmi qaydada verildiyi gündən 2 ay müddətində Bakı Apellyasiya Məhkəməsi vasitəsi ilə Azərbaycan Respublikası Ali Məhkəməsinə kassasiya şikayəti verilə bilər.

Sədrlik edən: imza
Hakimlər: imzalar
Əsli ilə düzdür:
Hakim Raqib Qurbanov